# Təsviri incəsənət

DƏRSLİK



3





LAYİHƏ





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

KƏMALƏ CƏFƏRZADƏ
YEGANƏ CƏLİLOVA

# TƏSVİRİ İNCƏSƏNƏT 3

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün
Təsviri incəsənət fənni üzrə
DƏRSLİK

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **bn@bakineshr.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

LAYİHƏ

# Mündəricat


## 1 TƏBİƏTİN EMALATXANASINDA

1. Təbiətin rəng palitrası . . . . . . . . . . 6
2. Ağ və qara rənglər . . . . . . . . . . . 8
3. İsti və soyuq kolorit . . . . . . . . . . 10
4. Təbiətdə kontrast rənglər . . . . . . . . . 12
5. Təbiətdə rəngin əhvali-ruhiyyəsi . . . . . . . . 14

Özünüzü yoxlayın . . . . . . . . . . . 16

## 2 İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR

6. İnsanın yaratdığı bəzək əşyaları . . . . . . . . 18
7. Xalçaları bəzəyən naxışlar . . . . . . . . . 21
8. Dekorativ-tətbiqi sənət . . . . . . . . . . 24
9. Evimizdəki qab-qacaq . . . . . . . . . . 26

Özünüzü yoxlayın . . . . . . . . . . . 28

## 3 SƏNƏTKARIN EMALATXANASINDA

10. Formanın müxtəlifliyi . . . . . . . . . . 30
11. Yaxın və uzaq . . . . . . . . . . . . 31
12. Təsviri sənətdə kompozisiya . . . . . . . . . 32
13. Rəngkarlıq . . . . . . . . . . . . 34
14. Qrafika . . . . . . . . . . . . . 36
15. Rəssam əsərlərində qara rəngin gücü . . . . . . . 38
16. Siluet . . . . . . . . . . . . . 40
17. Rəssam-illüstrator. . . . . . . . . . . 42
18. Portret . . . . . . . . . . . . . 45
19. Məişət mövzuları . . . . . . . . . . . 46
20. Mis qablarla natürmort . . . . . . . . . . 47

Özünüzü yoxlayın. . . . . . . . . . . 50

## 4 ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ

21. Memarlıq inciləri . . . . . . . . . . . 52
22. Rəssam və teatr . . . . . . . . . . . 54
23. Küçələrimizin bəzəyi — fənərlər . . . . . . . . 56
24. Küçədəki heykəllər . . . . . . . . . . 58
25. Park, bağ, bulvar . . . . . . . . . . . 60
26. Muzeylər. . . . . . . . . . . . . 62

Özünüzü yoxlayın . . . . . . . . . . . 64


YARADICI TAPŞIRIQ Quaş, akvarel və ya pastel təbaşirlər — Ləvazimat və tapşırıqlar

LAYİHƏ

# 1 TƏBİƏTİN EMALATXANASINDA



Təbiət rəssamı ilhamlandırır və öyrədir. O, ətraf aləmi təsvir edərkən, onu dərk etməyə çalışır.

Bu sehirli aləmi seyr etmək, onun təkrarolunmaz və qəribə gözəlliyini görmək üçün incəsənət dərsləri əvəzolunmazdır.

LAYİHƏ

# 1 Təbiətin rəng palitrası



Təbiət müxtəlif rəng çalarları ilə zəngindir. Parlaq, əlvan rənglərə və bu rənglərin qarışığına təbiətin bütün fəsillərində rast gəlinir.

Təbiət bu rənglərlə çiçəkləri, ağacların yarpaqlarını, kəpənəklərin qanadlarını, quşların lələklərini də boyayır.

**Xatırlayın**

Rənglər əsas
və qarışıq olur.

**Qarışıq rənglər və onların rəng tərkibi haqqında danışın.**



**MÜŞAHİDƏ EDİN**



LAYİHƏ





**YARADICI TAPŞIRIQ**

Quaş, akvarel və ya pastel təbaşirlər

**Yay fəslini təsvir edin. Təbiətdə qarışıq rənglərdə olanları öz rəsminizdə göstərməyə çalışın.**
**Onların rəng tərkibi haqqında danışın.**

- **Yay fəslində hansı rənglərə daha çox rast gəlmək olar?**
- **Təbiətdə rəngin rolu nədən ibarətdir?**

LAYİHƏ

# 2 Ağ və qara rənglər

Təbiətdə əlvan rənglərdən fərqlənən daha iki rəng var: ağ və qara. Səmadakı buludu, dağların zirvəsindəki qarı, çobanyastığı çiçəyinin ləçəklərini, tarladakı pambığı, suda üzən qu quşunu təbiət ağ rəngə boyayıb.



Qaranlıq gecəni, qarğanı, bəbiri və kömürü isə təbiət qara rəngə boyayıb.



**Müşahidə edin**

Təbiətdə ağ və qara rəngin yanaşı olduğunu da görmək olar.



LAYİHƏ

## Bilirsinizmi?

• Ağ rəngdən istifadə edilərək çəkilmiş təsvirlər incəliyi, zərifliyi və təmizliyi ilə insanda xoş təəssürat yaradır.

• Təsvirdə qara rəngdən daha çox istifadə olunubsa, təsvir "qəmgin" və "sərt" görünür.

### Sənətkar məsləhəti

Əgər təsvir müşahidəçidə zərif və yüngül əhval-ruhiyyə yaradırsa, deməli, ağ rəngdən istifadə edilmişdir.



- **Qara rəngi** boyaya əlavə etdikdə rəsm ağır, həyəcanlı, kədərli əhvali-ruhiyyə yaradır.
- **Boz rəngin** qarışığı olan təsvirdə qəmginlik, sakitlik hiss olunur.
- **Ağ rəngdən** daha çox istifadə olunduqda təsvir zərif və yüngül görünür.

**YARADICI TAPŞIRIQ** Quaş, rəngli karandaşlar, pastel təbaşirlər

**Təbiətdə ağ, qara, yaxud ağ-qara rəngdə olan varlıqların rəsmini çəkin. Verilmiş nümunələrdən rəsm zamanı istifadə edə bilərsiniz.**



1 2 3



1 2 3



1 2 3



1 2 3

• **Təsvir zamanı ağ və qara rəngin əhəmiyyəti nədir?**



LAYİHƏ

# 3 İsti və soyuq kolorit

Təbiət isti və soyuq rənglərlə zəngindir.

**Xatırlayın**

**Nəyə görə rəngləri isti və soyuq adlandırırlar? Onları sadalayın.**

**Müşahidə edin**

**Təbiət yarpaqları isti və soyuq rəngə boyayıb.**
**Onların rəng tərkibi haqqında danışın.**



Ağ buludlar soyuq mavi səmanı bəzəyir.



Qürub çağı günəşin şəfəqləri səmanı və buludları isti rəngə boyayır.



**Yadda saxlayın**

- **Fon** (fransız sözüdür, "dərinlik" deməkdir) — əsas təsvirin arxa hissəsidir.
- **Kolor** (latın sözüdür) — rəng və ya rəng uyğunluğu deməkdir.

LAYİHƏ

Rəssamlar da öz əsərlərini isti, yaxud soyuq rənglərlə yaradırlar. Belə rəng uyğunluğu **kolorit** adlanır.

**Kətan üzərində yağlı boya ilə yaradılan əsərlərə baxın və fərqini izah edin. Onların koloriti haqqında nə demək olar?**



Mir-Teymur Məmmədov.
"Sübh çağı"



Mir-Teymur Məmmədov.
"Yaddaş gecəsi"

**YARADICI TAPŞIRIQ** Quaş, pastel təbaşirlər

**İsti və yaxud soyuq koloritdə payızda yetişən meyvə və tərəvəzlərindən ibarət natürmort çəkin.**









- **Hansı fəsildə isti rənglər daha çox olur?**
- **Təbiətdə isti rəngin soyuq rəngə keçməsi və bunun əksi nə zaman baş verir?**

LAYİHƏ

# 4 Təbiətdə kontrast rənglər

Təbiətdə rənglərin bəziləri parlaq, digərləri isə solğun olur. Onlar yanaşı olanda təzad yaranır. Bir-birindən kəskin fərqlənən rənglərə **kontrast rənglər** deyilir. Onlar rəng dairəsində qarşı tərəfdə yerləşmişdir.

Parlaq, təmiz rənglər digər rənglərə nisbətən daha tez nəzərə çarpır. Bənövşəyi — sarı, qırmızı — yaşıl, göy — narıncı rənglər yanaşı olduqda, kəskin fərq yaranır. Bu fərq **rəng kontrastı** adlanır.

**Bənövşəyi — sarı**

**Qırmızı — yaşıl**

**Göy — narıncı**

**Xatırlayın**

Rəngləri rəng dairəsində göstərmək olar.
Bu dairədə üç **əsas** və üç **qarışıq** rəng var.




Digər rəng fərqi də mövcuddur. Bu, rəngin açıq və yaxud tündlüyünə görə olan fərqdir. Bu fərq **ton kontrastı** adlanır.



## Yadda saxlayın

- **Tablo —** fransız sözüdür, təsvir, rəsm və ya iri ölçülü şəkil deməkdir.
- **Təzad** (ərəb sözüdür) — ziddiyyət, əks olan deməkdir.
- **Kontrast** (fransız sözüdür) — "əks" mənasını bildirir. Bir-birindən kəskin fərqlənən rənglərə **kontrast** deyilir.
- **Rəng kontrastı** — parlaq rənglərin bir-birinə görə kəskin fərqi: qırmızı və sarı, qırmızı və yaşıl, göy və sarı.
- **Ton kontrastı** — rəngin açıq və tündlüyünün fərqi.



**Verilmiş quş fotolarında rəng və ton kontrastını müəyyən edin.**





LAYİHƏ

Rəssam Böyükağa Mirzəzadənin əsərində soyuq rənglərlə təsvir olunmuş dənizin rəngi **tablo**nun əsas hissəsini tutur. Ağ ləpələr tünd firuzəyi-yaşıl rəngin fonunda aydın görünür.

- **Əsərdə ilk nəzərə çarpan rəng hansıdır?**
- **Hansı kolorit müşahidə olunur?**
- **Verilmiş rəngləri təsvirdə tap və onların xüsusiyyətləri haqqında danışın.**





"Zuğulbada dəniz".
B.Mirzəzadə

İsti rənglə təsvir olunmuş çimərlikdə qızmar yay günəşinin hərarəti hiss olunur. Sarı-narıncı rəngə boyanmış sahil firuzəyi-yaşıl rəngli dəniz suyu ilə rəng kontrastı yaradır.

Təsvirdə soyuq rənglər çox olsa da, əlvan və isti rənglər daha tez nəzərə çarpır.

**YARADICI TAPŞIRIQ** Akvarel, quaş, rəngli karandaşlar və ya pastel təbaşirlər

**Rəng və yaxud ton kontrastını nəzərə alaraq, quşların rəsmini çəkin.**







- **Rəng və ton kontrastı nədir?**
- **Təbiətdə hansı rəng kontrastını müşahidə etmisiniz?**

LAYİHƏ

# 5 Təbiətdə rəngin əhvali-ruhiyyəsi

İnsanın ovqatı kimi, təbiətin də əhvali-ruhiyyəsi müxtəlifdir. O, şən, kədərli, sakit və ya vahiməli olur.

**Müşahidə edin**



Buludlar, dağ yamacları və ağaclar payız günəşinin şəfəqləri ilə işıqlanıb.

Əlvan rənglərdə gümrahlıq və təravət hiss olunur.



Narıncı buludlar qasırğanın yaxınlaşmasını xəbər verən qaranlığı daha da "gücləndirir".

Çəmənlikdəki otlar sanki donaraq bu təbiət hadisəsini hiss edir.

LAYİHƏ

Rəssam təbiəti təsvir edərkən onun əhvali-ruhiyyəsini hiss etməyi bacarır. “Kəndimizin sakinləri” adlı birinci tabloda çəhrayı, qonur və yaşıl boyalar sarı rənglə qarışdırılıb. Təbiət bu tabloda gümrah və şəndir.

“Xəzər neftçiləri” adlı ikinci tabloda isə göy, qırmızı, sarı, qonur və digər boyalar qara rənglə qarışdırılıb. Təbiətin əhvali-ruhiyyəsi həyəcanlı və zəhmlidir.



Böyükağa Mirzəzadə
“Kəndimizin sakinləri”



Böyükağa Mirzəzadə
“Xəzər neftçiləri”

**YARADICI TAPŞIRIQ** Akvarel, quaş və ya pastel təbaşirlər

**Təbiətdə müşahidə etdiyiniz əhvali-ruhiyyəni təsvir edin.** Onu payız fəslinə də həsr edə bilərsiniz. Məsələn, payızda təbiət — şən günəşli, mülayim küləkli və yağışlı, hətta vahimə dolu qarsırğalı da ola bilər.

- **Payız fəslinin əhvali-ruhiyyəsi haqqında nə deyə bilərsiniz?**
- **Nə vaxtsa sizin və təbiətin əhvali-ruhiyyəsi eyni olubmu?**

LAYİHƏ

## ÖZÜNÜZÜ YOXLAYIN

**1. Gördüklərinizin rəng tərkibi haqqında danışın.**





**2. İsti və soyuq koloriti müəyyən edin və fikrinizi əsaslandırın.**



"Doğma düzənliklər". Səməd Haqverdov



"Axşam". Maral Rəhmanzadə

**3. Əsərlərdə rəng və ton kontrastını müəyyən edin və fikrinizi əsaslandırın.**



"Qürub çağı". Tərlan Eyvazov



"Səhradan keçərkən". Rauf Canıbəyov

**4. Verilmiş bütün əsərlərdə isti və soyuq rəngləri adlandırın.**

LAYİHƏ

# 2 İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR





Əgər insanlar gözəlliyi
yarada bilməsəydilər,
dünya maraqsız olardı.

O, təbiətdən öyrənərək
ətrafımızı yaratdıqları ilə
bəzəyir, bizə sevinc
və xoş anlar bəxş edir.



LAYİHƏ

# 6 İnsanın yaratdığı bəzək əşyaları

Qədim zamandan insan bəzək əşyaları düzəldirdi. Əvvəlcə bu bəzəklər ovlanmış heyvanların dişindən, mərcandan, gildən hazırlanırdı. Sonra isə o, qiymətli daşlardan, metal və şüşədən istifadə etməyə başladı.

Bəzək sadə və dəbdəbəli olur. Gördüyünüz nümunələrdə təbiətin obrazları qiymətli metal və daşlardan istifadə olunaraq yaradılmışdır.

Nar bitkisi



*Metal haşiyədəki qırmızı rəngli daşlar nar dənəciklərini xatırladır.*

Parabüzən



Xarıbülbül



Buqələmun



Tovuzquşu



Cırcırama



Rəngli muncuq və saplardan istifadə olunmuşdur.







LAYİHƏ

## Sənətkar məsləhəti

**Bəzək əşyasının hazırlanması**

Təbiət obrazından məmulat hazırlamaq üçün əvvəlcə seçilən obyekt diqqətlə müşahidə olunur və rəsmi çəkilir. Çəkilmiş obyektin rəsmi təhlil edilərək detalları müəyyənləşdirilir. Sonra bəzəyin hazırlanması üçün üsul və material seçilir. Ardınca bəzək əşyası yaradılır.



*Obyekt*



*Obyektin formasının rəsmi*



*Detalların müəyyənləşdirilməsi*



Hazır bəzək əşyası



*Obyekt*



*Obyektin formasının rəsmi*



*Detalların müəyyənləşdirilməsi*





*Hazır bəzək əşyaları*

LAYİHƏ

Kim və nə üçün nəzərdə tutulmasından asılı olaraq, bəzəklərin öz obrazı, xarakteri var. Qadınlar üçün hazırlanmış bəzəklər onların gözəlliyini və zərifliyini vurğulayır. Kişilərə məxsus əşyaların bəzəkləri güc və cəsurluğu tərənnüm edir.

Keçmişdə hərbi zirehlər, dəbilqə, qılınc və qalxan zəngin naxışlarla və qiymətli daşlarla bəzədilirdi.

Döyüşçülər hazırlanmış bu libasları təntənəli mərasimlərdə geyinirdilər. Hərb meydanı üçün sadə və möhkəm dəbilqələrdən istifadə edirdilər. Təntənəli mərasimlərdə və hərb meydanında qalxanların formaları eyni olsa da, bəzəkləri müxtəlif olurdu.



**Dəbilqə, qılınc və qalxanın bəzədilməsində təbiətin hansı obrazlarından istifadə olunub?**

**YARADICI TAPŞIRIQ** A4 formatlı rəsm vərəqi, qalın rəngli karton, rəngli qələmlər, flomasterlər, muncuqlar, PVA yapışqanı, plastilin, qayçı

**Zövqünüzə uyğun qadın və ya kişilərə məxsus bəzək əşyası hazırlayın. Əvvəlcə formanı çəkin, kəsin, sonra isə üzərini muncuq və ya plastilinlə bəzəyin.**

**Bəzək əşyalarının hazırlanmasında hansı materiallardan istifadə olunur?**
**Təbiət və insanın yaratdığı bəzəklərin fərqi nədədir?**

LAYİHƏ

# 7 Xalçaları bəzəyən naxışlar

Təbiətin gözəlliyini özündə əks etdirən, evlərimizin bəzəyi olan xalça, əsasən, yun ipliklərdən toxunur. Toxuculuq sənətində ipliyin hörülən düyünü — **ilmə,** bu ilməni saxlayan əsas iplər isə **əriş** adlanır.

Xalçanın tuxunuşu



*İlmənin vurulması*



**Hana** (xalça toxuyan dəzgah)

**Yumaqlar** (yun iplər)





**Əriş** (ilməni saxlayan əsas şaquli iplər)

**İlmə** (hörülən düyün)

İnsanlar təbiətdə gördüklərini ilmələrin köməyi ilə xalçaya köçürürlər. Rəngli ilmələr təkrarlanaraq **naxış**, naxışın **ritmi** isə **ornament** yaradır. Naxışın forması, ritmi və rəngi — xalça bəzəyinin əsas elementləridir.

**Yadda saxlayın**

- **Ritm** — yunan sözüdür, növbələnmə, ardıcıllıq deməkdir.

LAYİHƏ

## Xatırlayın

**Naxışın ornamentdən fərqi nədir?**

Xalça naxışlarının elementləri

**Forma ritmi**
*"Su" ornamenti*



**Rəng ritmi**
*"Karvan" ornamenti*



**Rəng kontrastı**
*"Ulduz" ornamenti*





**Lətif Kərimov**

Təbiətin müxtəlifliyi və rəngarəngliyi kimi xalçanın da naxışları müxtəlif olur.

Dünya şöhrətli xalçaçı-rəssam Lətif Kərimovun yaratdığı xalçalarda təbiət möcüzəli ornamentlərə çevrilir.

Forma və rənglərin ritmi bir-birini əvəzləyərək xalçanı bəzəyir. O, əvvəlcə damalı kağızda xalça üçün naxışlar tərtib edir, sonra xana dəzgahı üzərində rəngli ilmələrlə əks etdirirdi.

L.Kərimovun tərtib etdiyi naxış və ornamentlər əsasında toxunmuş xalçalar kompozisiya quruluşu və rəng həllinə görə seçilir.

Onun naxış nümunələri əsasında toxunmuş "Əfşan", "Şuşa", "Göygöl", "Butalı", "Heyvanlar aləmində", "Füzuli" və s. xalçaları Azərbaycan xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir.

Azərbaycanın Xalq rəssamı Lətif Kərimov yeni xalça naxışları hazırlamaqla yanaşı, həm də xalça sənətimizin tarixini dərindən öyrənmişdir.

Onun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi yaradılmışdır.

LAYİHƏ

## Tanış olun

### Xalçalarda istifadə olunan naxışlar

Xalçanın ortası nağıllara açılan “pəncərələr”ə bənzəyir. Əfsanəvi təsvirlər seyrçini pəncərələrdən sehrli nağıl dünyasına dəvət edir.

Pəncərələrin arasını və haşiyələrdəki möcüzəli fiqurlar bu sehrli dünyaya gedən “cığırlara” səpələnib.

Xalçayda ənənəvi simmetriya olmasa da naxışlardakı rəngarənglik, sayrışan forma və fiqurlar vəhdət yaradaraq vahid onamentə çevrilib.

**Tanış olduğunuz naxış və ornamentlər xalçada necə yerləşdirilib?**



Lətif Kərimov. “Əsrlərin nəğməsi”. 1985



“İnsan”



“Ceyran”



“Dəvə”



“Ulduz”

*“Əl-ələ” naxışı təkrarlananda “Yallı” rəqsini oynayanları xatırladır.*



“Əl-ələ”



**YARADICI TAPŞIRIQ** A4 formatlı rəsm vərəqi, damalı dəftər vərəqi, rəngli karandaşlar, flomasterlər, qələmlər

**Forma və rəng ritmini, rəng kontrastını nəzərə alaraq yeni naxış və ornament nümunələri düşünün və çəkin. Verilmiş nümunələrdən də istifadə edə bilərsiniz.**

*Naxış və ornamentin çəkilməsi*



*Naxışlar* *Ornament*

- **Xalçadakı naxışlar təbiətdə olan formalardan nə ilə fərqlənir?**

LAYİHƏ

# 8 Dekorativ-tətbiqi sənət

Qab-qacaq, mebel, parçalar, zinət əşyaları, geyim — insanın məişətdə istifadə etdiyi əşyalardır. Onlar dekorativ-tətbiqi sənət növünə aiddir. Bu sənətdə istənilən obyekt naxışa çevrilə bilər.
Dekorativ-tətbiqi sənətin müxtəlif növləri mövcuddur. Məsələn:

**Oyma** — ağac, daş, sümük üzərində oyularaq hәkk olunmuş naxışdır.



**Şəbəkə** — ağacdan və alabəzək şüşələrdən düzəldilmiş təsvirdir.



**Metal üzərində döymə** — qızmar metal döyəcləmə vasitəsilə istənilən formaya salınmasıdır.



LAYİHƏ

Evimizdəki divar kağızları, pəncərə pərdələri, çarpayı üzlükləri, süfrələr və salfet kağızları da dekorativ-tətbiqi sənətə aiddir.



## Tanış olun

İki və ya üç kontrast rəngin çalarlarından istifadə edərək sonsuz sayda cəlbedici nümunələr yaratmaq mümkündür.



## Bilirsinizmi

**Dekorda kontrast rənglər**

İki rəngdən istifadə edərək gözəl dekor çəkmək mümkündür.



Bu dekorun çəkilməsində isə üç kontrast rəngdən istifadə edilib.



Dörd rəngdən istifadə etsək, dekorun çeşidi daha çox olar. Dekoru tərtib edərkən fiqurların kəsişən yerlərini başqa rənglə boyasan, daha maraqlı olar.



Belə dekorla salfet kağızını, qovluğu, pərdəni və digər əşyaları bəzəmək mümkündür.

**YARADICI TAPŞIRIQ**  Quaş, rəngli qələmlər, flomasterlər

**Dekorativ-tətbiqi sənətin növlərindən birinə aid nümunə çəkin.**

- **Dekorativ-tətbiqi sənətin insan həyatında əhəmiyyəti nədir?**

LAYİHƏ

# 9 Evimizdəki qab-qacaq

Təbiətin rəngarəngliyini və forma müxtəlifliyini evimizdə istifadə etdiyimiz qab-qacaqlarda da görmək olar. Qab-qacaqları ağac, gil, mis, şüşə, plasmas və digər materiallardan hazırlayırlar. Onların yaradılmasında rəssamın rolu böyükdür.

**Yonma** üsulu ilə ağacdan hazırlanmış əşyalar mətbəxin yaraşığıdır. Onların bəzədilməsində müxtəlif üsullardan istifadə edirlər. Bəzən onları rəngarəng naxışlarla bəzəyir, bəzən də ağacın öz təbii bəzəyindən istifadə edirlər.



Şüşə vazaların forma və naxışları təbiətin gözəlliyini özündə əks etdirir. Bu möcüzəni yaradan şüşəüfürən sənətkardır. O, közərən şüşə damcısını üfürərək istədiyi formaya salır. Sonra üzərini **cızma** üsulu ilə bəzəyir.





- **Qabların üzərindəki ritm və naxışlar haqqında nə deyə bilərsiniz?**
- **Qablar nə üçün müxtəlif materiallardan hazırlanır?**

LAYİHƏ

Heç şübhəsiz ki, siz çay içdiyiniz stəkanın, yemək yediyiniz boşqabın nədən hazırlan dığını dəfələrlə düşünmüsünüz. Bunların hamısı **keramika**dır.

**Yadda saxlayın**

- **Keramika** – yunan sözüdür, "gil qab" deməkdir.

**Keramika** — insan tərəfindən yaradılan ilk süni material hesab olunur. O, gilin digər mineral əlavələrin qarışığından və bişirilməsindən əldə edilən məmulatdır. Bu qarışığa istənilən forma vermək mümkündür. Onu yapmaq və hazır məmulatın üzərinə rəng çəkməklə hazırlayırlar. Hazır məmulat odda bişərsə, o, daha möhkəm olar.
Sənətkarlar keramikadan təbiətin müxtəlif formalarına bənzər qab-qacaq hazırlayır.








**YARADICI TAPŞIRIQ** Plastilin

**Ağac, şüşə və ya keramikadan hazırlanan təbiət formalarına bənzər qab düşünün və yapın.**

- **Gördüyünüz qablardan necə istifadə etmək olar? Onlar sizə hansı təbiət formalarını xatırladır? Qablar hansı materiallardan hazırlanıb?**

LAYİHƏ

## ÖZÜNÜZÜ YOXLAYIN

**1. Bəzək əşyalarının hazırlanmasında hansı təbiət formalarından istifadə olunmuşdur?**



**2. Naxışlarda forma və rəng ritmini, rəng kontrastını göstərin.**







**3. Dekorativ-tətbiqi sənətin növləri haqqında bildiklərinizi danışın.**

| | | |
|---|---|---|
| **Oyma** | **Şəbəkə** | **Metal üzərində döymə** |

**4. Qabların hansı materialdan hazırlandığını izah edin.**



**4. Qabların işlənmə üsulları barədə nə deyə bilərsiniz?**



LAYİHƏ

# 3 SƏNƏTKARIN EMALATXANASINDA





Dərsliyin bu hissəsində ən vacib suallara cavab tapacaqsınız.

Rəssamın yaratdığı əsərlərdə onun nə demək istədiyini başa düşəcək, təsvirin köməyi ilə öz fikirlərinizi, hisslərinizi ifadə etməyi öyrənəcəksiniz.

LAYİHƏ

# 10 Formanın müxtəlifliyi

Sadə və mürəkkəb formaya malik əşyalarla hər gün qarşılaşırıq. Bu əşyaların quruluşunu müxtəlif fiqurlar təşkil edir.



Həndəsi fiqura bənzəyən bu quruluş **konstruksiya** adlanır. Əşyaların çoxu mürəkkəb konstruksiyaya malikdir, yəni onun tərkibi bir neçə həndəsi fiqurdan ibarətdir.

Memarın yaratdığı bina, dizaynerin yaratdığı fənər, dulusçunun yaratdığı küpə də bu fiqurların birləşməsindən yaranır.



**Obyektlərin quruluşunda hansı həndəsi fiqurları görmək olar?**



Forma və fiqurların konstruksiyası rəssama əsərlərin yaradılmasında yardım edir.

**Müşahidə edin**

- **Natürmortdakı əşyaların əsasını hansı həndəsi fiqurlar təşkil edir?**
- **Tablonun koloriti haqqında nə deyə bilərsən?**



"Mavi fonda natürmort".
Böyükağa Mirzəzadə

**YARADICI TAPŞIRIQ** Rəngli karandaşlar, flomasterlər

**Əsasını müxtəlif həcmli həndəsi fiqurlar təşkil edən rəsm çəkin.**

- **İki və ya daha çox həndəsi fiqurlardan ibarət olan hansı əşyaları sadalaya bilərsiniz?**

LAYİHƏ

# 11 Yaxın və uzaq

Ətrafda olanları diqqətlə müşahidə edərkən onların ölçülərinin dəyişdiyini hiss edirik. Biz obyektdən uzaqlaşdıqca onun ölçüsünün məsafəyə görə kiçildiyini görürük.

Şosedə hərəkət edən yük avtomobillərinə diqqət yetirsək, uzaqdakının ölçüsünün yaxındakına nisbətən kiçik olduğunu görərik, halbuki onların ölçüləri eynidir.



**Yadda saxlayın**

Yaxındakı obyektləri daha aydın və olduğu ölçülərdə görürük. Uzaqdakıların isə kiçik ölçüdə və solğun olduğunu müşahidə edirik.

**Müşahidə edin**

Məsafədən asılı olaraq, çay qırağındakı ağacların ölçüləri bir-birindən fərqlənir. Uzaqdakı ağaclar yaxında bitən ağaca nisbətən kiçik görünür.

Rəsm çəkilərkən bu qaydaya riayət olunarsa, deməli, rəsm düzgün çəkilib.



Rəssam Kamil Xanlarovun əsərində bu qaydaya uyğun olaraq, yaxındakı qadın təsvirləri uzaqda olanlara nisbətən böyükdür.



"Sahədə".
Kamil Xanlarov

**YARADICI TAPŞIRIQ** Quaş, flomasterlər, pastel təbaşirlər

**Yaxın və uzağı nəzərə alaraq istədiyini təsvir edin.**

- **Nəyə görə rəsm zamanı yaxın və uzağı nəzərə almaq lazımdır?**

LAYİHƏ

# 12 Təsviri sənətdə kompozisiya

Təsviri yaradıcılıqda hər bir təsvir onu vərəqdə düzgün yerləşdirməkdən başlayır. Rəsmi çəkərkən oradakı obyektləri elə yerləşdirmək lazımdır ki, əsas və köməkçi elementlərin birgə əlaqəsi əsərin əsas məzmununu aydın ifadə etsin.

Əsəri seyr edən isə təsvirin gözəlliyini görə bilsin. Təsvirdəki elementlərin bir-biri ilə belə əlaqəsi **kompozisiya** adlanır.

### Sənətkar məsləhəti

Natürmortda və mənzərədə kompozisiyanın düzgünlüyü onun məzmunu və vərəqdə necə yerləşməsi ilə müəyyənləşir.



*Təsvir aşağı və sağa sürüşüb.*



*Təsvir çox böyükdür.*



*Təsvir çox kiçikdir və yuxarıya sürüşüb.*



*Təsvir düzgün yerləşdirilib.*



*Təsvir aşağı hissəsində çəkilib.*



*Təsvir çox böyükdür.*



*Təsvir çox kiçikdir və yuxarıya sürüşüb.*



*Təsvir düzgün yerləşdirilib.*

LAYİHƏ

Rəssam əsər yaradarkən əvvəlcə onun **eskizini, etüdünü** — yəni **qaralama rəsmini** çəkir. Sonra əsərin necə yerləşəcəyini əvvəlcədən müəyyənləşdirir.

## Tanış olun



**Eskiz** — əsərin ilkin qaralaması



*Əsas kompozisiyanın karandaşla rəsmi*



*Nəzərdə tutulmuş elementlərin etüdləri və ya eskizləri*



*Hazır əsər*

"Balaca rəssam". M. Hüseynov

## Yadda saxlayın

- **Eskiz —** təsəvvür edilən əsərin ilkin qaralamasıdır.
- **Etüd —** naturadan çəkilir, təsviri sənət əsərinin ilkin nümunəsidir.

**YARADICI TAPŞIRIQ**  Flomasterlər, rəngli karandaşlar, pastel təbaşirlər

**"Pəncərədən görünüş" mövzusunda eskiz, yaxud məktəb ləvazimatlarınıza dair etüd çəkin. Rəsmin kompozisiyasını düzgün qurmağa çalışın.**

- **Kompozisiya nədir?**
- **Eskizlər nə üçün lazımdır?**
- **Eskiz və etüd çəkərkən kompozisiya qaydalarına necə riayət olunur?**

LAYİHƏ

- **Təsviri sənət** rəssamların yaratdığı möcüzəli aləmdir. Bu aləmdə rəngkarlıq, qrafika və heykəltəraşlıq növləri hər zaman gördüyümüzü, düşündüyümüzü və duyduğumuzu əks etdirir.

## 13 Rəngkarlıq

Təbiətdə hər bir varlığın öz rəngi var. Rəng və onun çalarlarını boyaların köməyi ilə bizə çatdıran təsviri sənət növü **rəngkarlıq** adlanır. Rəngkarlıqda əsas ifadə vasitəsi — **rəng** və **ləkədir**.

Rəngkarlıq əsərləri kağızda, kartonda, kətan və divar üzərində, müxtəlif boyalarla yaradıla bilər. Rəsm zamanı quaş və akvarel boyalarından istifadə olunur.

Boyaların müxtəlif xüsusiyyətləri olduğu haqqında düşünmək lazımdır.

- **Sulu boya olan akvarel və quaşın fərqini yada salın.**

### Sənətkar məsləhəti

- Akvarellə işləyərkən ağ boyadan istifadə olunmur. Ağ rəng vərəqin rəngidir. İş zamanı sudan çox istifadə etmək lazımdır.
- Quaşla iş zamanı isə sudan az istifadə olunur. Təsvir quruduqdan sonra üzərinə istənilən, hətta ağ rəng çəkmək olar.



*Akvarellə çəkilmiş təsvir*



*Quaşla çəkilmiş təsvir*

Layihə



**Toğrul Nərimanbəyov**

Azərbaycan rəngkarlıq sənətinin görkəmli namayəndələrindən biri də rəssam Toğrul Nərimanbəyovdur.

Sənətkar Azərbaycanın gözəlliklərini rəngkarlıq əsərlərində əlvan boyalarla dünyaya tanıtmışdır.

Görkəmli rəssamın yaratdığı əsərlər əsasən mənzərə, portret, divar rəngkarlığı və teatr rəssamlığı kimi müxtəlif sahələri əhatə edir.

Azərbaycan təbiətinin gözəllikləri, adət-ənənələrimiz, gündəlik həyatımızdan səhnələr onun əsərlərində dünyanı dolaşmışdır. Obrazların bolluğu, kompozisiyanın dolğunluğu, bədii dekorativlik, zəngin əlvan kolorit onun fərdi üslubunun əsas əlamətləridir.

Rəssamın yaradıcılığında natürmort janrının xüsusi yeri var. O, öz əsərlərində çəkdiyi müxtəlif əşyaları, ləziz Azərbaycan nemətlərini, xüsusən də, nar meyvəsini sevgi ilə əks etdirir. Ona görə, rəssamın natürmortları xoş duyğular yaradır, adamı sehirli bir aləmə çəkib aparır.

Ustad yaratdığı "Xurcunla nar", "Narlar", "Nar ağacı" kimi əsərlərdə vətənimiz Azərbaycanın zəngin təbiətini özünəməxsus ustalıqla təsvir edib.



"Sevincli gün"



"Xurcunla nar"

**YARADICI TAPŞIRIQ** Akvarel, quaş

**Akvarel və ya quaşdan istifadə edərək "Nar" mövzusuna həsr olunmuş rəsm çəkin.**

- **Verilmiş rəssam əsərlərində koloriti müəyyənləşdirin. Onları boyalarla işləmə üsuluna görə müqayisə edin.**
- **Təsvirlərdə rəng hansı əhvali-ruhiyyəni bildirir?**

LAYİHƏ

# 14 Qrafika

Rəssamın kağız və ya karton üzərində karandaş, kömür və qələmlə çəkdiyi rəsmlər **qrafika** adlanır. **Xətt**, **ştrix**, **ton** — qrafikanın əsas təsvir vasitələridir.

**Tanış olun**



*Tuşla çəkilmiş təsvirlər*





**Yadda saxlayın**

- **Qrafikanın** əsas təsvir vasitələri: **xətt, ştrix, ton**

**Xətt.** Təsvirdə xətt əşyanın formasının və detalların konturlarını müəyyən etməklə, ştrix və tonun əsasını təşkil edir.



**Ştrix** — qısa xətdir. O, qalın və nazik, düz və maili, əyri və çarpaz olur.






Ştrixin köməyi ilə rəssam forma və həcmi, işığı, kölgəni və məkanı çəkir. Bunun üçün rəsm əvvəlcə zəif ştrixlərlə çəkilir ki, onun üzərində zəruri düzəlişlər etmək mümkün olsun.

LAYİHƏ

**Ton.** Sadə karandaşın qrifelini kağız üzərinə müəyyən təzyiqlə basmaqla qara xəttin lazım olan çalarını almaq olar. Yəni təzyiq artarsa, tünd, az olarsa, açıq ton alınar. Tonu daha da gücləndirmək üçün ilk ştrixin üzərinə növbəti ştrix layı çəkmək olar.



**Yadda saxlayın**
- Ştrixləmə zamanı ən açıq ton kağızın ağ rəngidir.

**Sənətkar məsləhəti**
Karandaşla işləmək bacarığı — **ştrixləmə**, **tona çevirmə**, **yayma** üsulunu öyrəndikdən sonra yaranır.

*Ştrixləmə — ştrixlərin sıra ilə və ya çarpaz çəkilməsidir.*



*Tona çevirmə — ştrixlərin üst-üstə bir neçə dəfə çəkilməsidir.*



*Yayma — ən tünddən ən açığa qədər olan ton keçididir.*



**YARADICI TAPŞIRIQ** Sadə karandaş, qara tuş qələm, flomaster, pastel təbaşir

**Xətt, ştrix və tonun köməyi ilə istədiyiniz təsviri çəkin.**

- **Rəngkarlığın qrafikadan fərqi nədir?**

LAYİHƏ

# 15 Rəssam əsərlərində qara rəngin gücü



**Ələkbər Rzaquliyev**

Görkəmli qrafika ustası Ələkbər Rzaquliyev əsərlərində Azərbaycanın qədim tarixini və ənənələrini məharətlə göstərmişdir. Erkən yaşlarından köhnə şəhəri, onun Şirvanşahlar sarayını, Qız qalasını, qədim məscid, karvansara və hamamlarını, dar küçə və dalanlarını, qala divarlarını dərindən sevmiş və möhkəm bağlanmışdır.

Rəssam öz yaradıcılığında Qədim Bakının memarlıq abidələrinə, xalqımızın adət-ənənələrinə, köhnə Bakı sakinlərinə geniş yer ayırmışdır. O, öz uşaqlığını, Bakının bazarlarını, meydanlarda heyvan döyüşdürənləri, satıcıları, milli geyimli qadın və kişiləri çəkirdi. Onun ağ-qara rənglərlə yaratdığı rəsmlər demək olar ki, əsl Bakı haqqında ensiklopediyadır.

Ələkbər Rzaquliyev insanların məişətini əks etdirən mövzuları da çoxdur. Burada pambıqçıları, neftçiləri, balıqçıları ağ-qara rəngin təzadı və ahəngdarlığı ilə böyük məharətlə təsvir etmişdir.




“Qala küçəsi”



“Qalada”

LAYİHƏ

Ustalıqla düzülmüş ağ-qara ləkələrin ritmi, nazik xətt düzümü, cizğilərin kəsişməsi qrafik əsərlərindəki mənzərəni xüsusilə canlı göstərir.



“Qız qalası”

- **Ələkbər Rzaquliyevin əsərlərində hansı tikililəri müşahidə edirsiniz? Onlar haqqında nə bilirsiniz? Əsərlərdə ağ və qara rəngin rolu nədən ibarətdir?**

**YARADICI TAPŞIRIQ** Qara flomaster, qara pastel təbaşir, qara karandaş

**“Qədim Bakı” mövzusunda qrafik rəsm çəkin. Rəsmi xətt, ştrix, ton və ya cizgilərlə yerinə yetirin.**

- **Qrafika və rəngkarlıq növlərinin fərqi nədədir?**
- **Onların yaradılmasında hansı bədii ifadəli vasitələrdən istifadə edilir?**

LAYİHƏ

# 16 Siluet

**Siluet** kölgəni xatırladır. Siluet ağ fonda qara rənglə, yaxud qara fonda ağ rənglə çəkilir və ya kağızdan kəsilir.



Siluetə, qrafika sənəti ilə yanaşı, incəsənətin digər növlərində də rast gəlmək mümkündür: məsələn, rəngkarlıqda, heykəltəraşlıqda, dekorativ-tətbiqi sənətdə və hətta teatrda...



"Uzun yol. Günəşli payız günü". İsaak Levitan

**Bilirsinizmi?**

Siluet-kuklalardan teatr səhnəsində də istifadə edilir. Bunun üçün səhnədə ekran və ya divar, xüsusi işıqlandırma lazımdır. Çox zaman kuklaları insan əlləri də əvəz edir.

**Sənətkar məsləhəti**

Əllərin köməyi ilə sən də öz "kölgə teatrı"nı yarada bilərsən. Bunun üçün masaüstü lampa və kölgənin düşəcəyi səth — divar kifayətdir.



**Bu siluetlər hansı heyvanları xatırladır?**

LAYİHƏ

Siluet-təsvirdə yalnız obyektin forması çəkilir: məsələn, siluet-portret adətən yandan çəkilir.

Siluet-təsviri bir neçə üsulla yerinə yetirmək mümkündür. Ən sadə üsul — qara rəngli kağızda obyektin konturu çəkilir, sonra qayçı ilə kəsilərək ağ kağıza yapışdırılır. Eyni zamanda, çəkilmiş siluetləri tuşla da rəngləmək olar.



**Tanış olun**

Kitab tərtibatında siluet-illüstrasiyalardan geniş istifadə olunur.





**Yadda saxlayın**

- **Siluet —** əşyaların və fiqurların fon üzərində birrəngli təsvirinə deyilir.

**YARADICI TAPŞIRIQ** A4 formatlı ağ və qara kağız

**İstədiyiniz siluetləri kağızdan kəsin. Siluetlər ağ kağız üzərində qara, qara kağız üzərində ağ rəngdə ola bilər.**

- **Siluetə harada rast gəlmisiniz?**
- **Siluet və rəsmin hansı oxşar və fərqli cəhətləri var?**

LAYİHƏ

# 17 Rəssam-illüstrator

Rəssam əli ilə yaradılan əşyalardan biri də hər gün istifadə etdiyiniz kitablardır. Kitab rəfinə nəzər salsanız, orada dərslik, nağıllar, müxtəlif ölçülü nazik və qalın kitablar görərsiniz.



Kitabda mətnlə yanaşı, rəssamın çəkdiyi şəkilləri də görürük. Bu təsvirlər kitabda yazılan hadisənin təsviridir, o, **illüstrasiya** adlanır. İllüstrasiyalar kitab qəhrəmanlarını və hadisələrin baş verdiyi məkanı əks etdirir.

**Bilirsinizmi?**

Qədim Şərqdə saray əyanları dəbdəbəli və bəzəkli əşyalardan istifadə etməyi xoşlayırdılar. Onların oxuduğu kitablar da cəlbedici illüstrasiyalarla zəngin idi. Bu kitablardakı təsvirlər **miniatür** adlanır.

Kitabın vərəqinə birbaşa çəkilən bu incə rəsmlər rəssamdan böyük səbir və ustalıq tələb edirdi. Azərbaycanın miniatür nümunələri bu gün də dünyada məşhurdur.



*Miniatür fraqmenti*

Kitab üz qabığından başlayır. O, qalın və yumşaq ola bilər. Kitaba baxarkən nəyə aid olduğunu dərhal bilmək olar.

Rəssam kitabın üz qabığını işləyərkən onun adı üçün xüsusi yer ayırır, müxtəlif forma, ölçü və rənglərdə olan hərflər seçir.




**Yadda saxlayın**

- **İllüstrasiya** — latın sözüdür, əyani görünüş deməkdir. Mətnin rəsm vasitəsi ilə ifadəsidir.
- **Miniatür** — italyan sözüdür, qədim əlyazmalarda çəkilən kiçik ölçülü rəngli təsvir.

LAYİHƏ

Oxumağı bacarmayan kiçikyaşlı uşaqlar üçün "oyuncaq-kitablar" yaradırlar. Onlar elə möcüzəlidir ki!.. Qalın vərəqli səhifələr açılanda, qatlanıb-açılan təsvirlər elə bil ki canlanaraq həcmli fiqurlara çevrilir. Onlara hər tərəfdən baxmaq mümkündür.





Nağıl, sərgüzəştlər, yaxud dərslik kitabı üzərində işləyən rəssam fikirləşir ki, kitabın nədən danışdığı ilk baxışdan bilinsin. Çünki onların illüstrasiyası tam fərqlidir. Nağıl kitabında həm illüstrasiya, həm də naxışlı hərflər yerinə düşər. Dərslikdəki sadə illüstrasiya isə dərsin yaxşı qavranılmasına kömək edir.

LAYİHƏ



**Qəzənfər Xalıqov**

Azərbaycanın Xalq rəssamı Qəzənfər Xalıqov şair və yazıçılarımızın əsərlərinə illüstrasiyalar çəkmiş və kitablarına bədii tərtibat vermiş rəssamlardandır. O, məharətli qrafika ustası idi. Onun qrafik işləri və kitab qrafikası sahəsində yaratdığı sənət nümunələri professional işlənilmə baxımından tamaşaçını valeh edirdi.

Rəssam "Koroğlu" (1943), "Koroğlu at belində" (1944), "Xaqani Şirvani" (1953), "Xaqani zindanda" (1954), "Məhəmməd Füzul" (1958) kimi qrafik portretləri kömür və akvarel texnikasında işləmişdir.

O, rəngkarlıq, qrafika, teatr dekorasiyası və kino rəssamlığı sahəsində də fəaliyyət göstərmişdir.

Qəzənfər Xalıqov tariximizdə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin obrazını yaradan sənətkar kimi yadda qalmışdır.

Qəzənfər Xalıqovun kitab illüstrasiyaları









- **Kitaba illüstrasiyalar nə üçün lazımdır?**



Nizami Gəncəvi

**YARADICI TAPŞIRIQ**

Quaş, rəngli qələmlər, flomasterlər, rəngli kağız, karton, PVA yapışqanı

**Qeyri-adi formalı, illüstrasiyalarla zəngin kitab tərtib edin. Əvvəlcə sevdiyiniz nağıllardan birini seçin və ya onu özünüz fikirləşin. Sonra hazılayacağınız kitabın formasını, üz qabığını, vərəqlərinin sayını, yazacağınız mətni düşünün.**

- **Evdəki kitablarınıza nəzər salın. Hansı kitabın illüstrasiyaları daha çox xoşunuza gəlir? Həmin kitablaraa illüstrasiya çəkən rəssamları yadınızda saxlayın.**

LAYİHƏ

# 18 Portret

Rəssamlar öz əsərlərində insanları da təsvir edirlər. Muzeylərdəki portret əsərlərinə baxarkən müxtəlif dövrlərdə yaşayan insanların necə göründüyünün şahidi olursan.

**Portretdə** insanın surəti və daxili aləmi əks olunur. Rəssam portreti çəkərkən insanın xarakterinin əsas xüsusiyyətlərini başa düşməyə və ifadə etməyə çalışır.

- **Portretdə ilk diqqəti cəlb edən detallar hansılardır?**
- **Portretlərdə hansı kolorit müşahidə olunur?**



"Heyvandar".
Böyükağa Mirzəzadə



"Neftçi".
Tahir Salahov

Elə portretlər var ki, insan obrazı onu əhatə edən əşyalarla birlikdə yaradılır. Portretdəki detallar — geyim, istifadə olunan əşyalar, insanın duruşu təsadüfi deyil. Rəssamın diqqətlə seçdiyi bu əşyalar təsvir olunmuş insanın kimliyi, harada yaşadığı, hansı peşə sahibi olduğundan danışır.



*Quaşla çəkilmiş şagird rəsmləri*

**Yadda saxlayın**
- **Portret** — fransız sözüdür, "dəqiq cizgilər" deməkdir.

**YARADICI TAPŞIRIQ** Quaş, pastel təbaşirlər, flomasterlər

**İstədiyiniz insanın, peşə sahibinin portretini çəkin.**

- **İndiyədək tanış olduğunuz hansı rəssamların təsvir etdiyi portretlər yadınızda qalıb?**

LAYİHƏ

# 19 Məişət mövzuları

Rəssamı əhatə edən mühit bütün dövrlərdə onun üçün maraqlı olub. Bu mövzularda insanın adi günlərdə nə etməsi, hansı işlə məşğul olması və yaşayış tərzi haqqında söhbət açılır.

**Məişət** adlanan bu süjetli əsərlər həyatımızın hər bir anının nə qədər maraqlı və mühüm olmasından danışır.



"Dağlarda". Qafar Seyfullayev



"Çayçı Məmməd". Rasim Babayev



"Qəzinti". Böyükağa Mirzəzadə

**YARADICI TAPŞIRIQ** Quaş, pastel təbaşirlər, flomasterlər

**İnsanın gündəlik həyatını əks etdirən süjetli rəsm çəkin.**

- **Həyatınızda baş verən hansı əlamətdar hadisə yadınızda qalıb?**
- **Süjetli rəsmlə portretin fərqi nədədir?**



LAYİHƏ

# 20 Mis qablarla natürmort

İnsanın istifadə etdiyi əşyalar onun sahibi və yaşadığı dövr haqqında çox şeylər söyləyə bilər. Rəssam əsərlərində belə əşyaların təsviri **natürmort** adlanır. Natürmortların quruluşunda mis qablardan tez-tez istifadə edirlər. Mis yumşaq metal olduğu üçün onu qızdırmaqla lazım olan formaya salmaq asandır.



Metal səthinə **döymə** və **cızma** üsulu ilə naxış vurulur. Döymə ilə məşğul olan sənətkarlara **dəmirçi** deyilir. Onların yaratdığı qablar isə əsil sənət nümunəsidir.

Əsərdə hansı əşyanın necə təsvir olunması çox vacibdir. Müxtəlif cür yerləşdirilən eyni əşyalar əlvan və ya sakit rəngli boyalarla çəkilməyindən asılı olaraq, bayram və ya kədər, xoşbəxtlik və ya tənhalığı ifadə edə bilər.

**Yadda saxlayın**
• **Natürmort** (fransız sözüdür) — "cansız təbiət" mənasını bildirir.

LAYİHƏ

**Tanış olun**

Azərbaycan misgərlərinin hazırladığı mis qablar



*Sərnic*



*Kasa*



*Səhəng*



*Sərpuş*



*Həvəngdəstə*



*Qazan*

LAYİHƏ

**YARADICI TAPŞIRIQ** Quaş, akvarel, pastel təbaşirlər

**Mis qablardan ibarət naturadan natürmort çəkin. Qabların üzərini döymə və ya cızma üsulu ilə bəzəyin. Verilmiş nümunədən istifadə edə bilərsiniz.**

1. Sərpuşun təsvir ardıcıllığı:



2. Mis qablardan ibarət natürmortun təsvir ardıcıllığı:

1



2



3



4



- **Natürmortlardakı əşyalar haqqında nə deyə bilərsiniz?**
- **Gördüyünüz natürmortların əhvali-ruhiyyəsi, koloriti haqqında danışın.**

LAYİHƏ

## ÖZÜNÜZÜ YOXLAYIN

**1. Rəsmlərin hansı akvarel, hansı quaşla çəkilib? Onların fərqini izah edin.**

A


B


**2. Qrafik əsərlərin müəllifini söyləyin. Əsərlər haqqında fikirlərinizi şərh edin.**

**1. Elturan Avalov. "Şuşa. Gövhər Ağa məscidinin yuxarı minarəsi".**
**2. Xalidə Səfərova. "Mənim diyarım". 3. Altay Hacıyev. "Yaz nəğməsi"**


1


2


3

**3. Silueti müəyyən edin.**






**4. Verilmiş rəsm əsərində hansı mis qablar təsvir olunmuşdur?**



"Samovarlar".
Məhəmməd Orucov

LAYİHƏ

# 4 ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ



Küçəyə çıxarkən binalar, vitrin, bəzəkli hasar, fənər, avtomobillər və diqqəti cəlb edən çox şeylər görmək olar.
Bütün bunlar ümumilikdə şəhərin siması, obrazıdır. Onun yaradılmasında rəssamın danılmaz rolu vardır.

LAYİHƏ

# 21 Memarlıq inciləri

Şəhərimizin tikililəri arasında elələri var ki, onları **memarlıq inciləri** adlandırırlar. Onların hər birinin öz tarixçəsi, "əfsanəsi" var. Mədəni irsimizin nişanələrini qoruyan bu tikililər şəhərimizin yaraşığıdır.

Şirvanşahlar sarayını seyr edin. Şəhərimizin fəxri olan bu tikili İçərişəhər adlanan ərazidə yerləşir. O, nağıllarda təsvir olunan sarayı xatırladır. Onu dövrəyə alan qala divarı əsl incəsənət əsəridir.

Qoşa qala qapısı



Qoşa qala qapısının üzərindəki heyvan fiqurları (fraqment)



Qoşa qala qapısı üzərindəki fiqurlar haqqında məlumat toplayın.

Sarayda yaşayanların geyimindəki bəzəklər tikilidə istifadə olunan naxışlara bənzəyir.

Şirvanşahlar sarayı





Layihə

Qeyri-adi forması ilə digər tikililərdən fərqlənən əfsanəvi Qız qalası paytaxtımızın rəmzi sayılır.

Küləklərə sinə gərərək, dəniz sahilində möhkəm dayanan bu tikilinin divarındakı xətvari çıxıntıların ritmi əfsanəvi cəngavərin zirehini xatırladır.



Qız qalası

Azərbaycan Dövlət Akademik Filarmoniyasının qızılı rəngə boyanmış qoşa qüllələrinin milləri kralların tacını xatırladır. Bina ağ və qızılı rəngə boyanıb. Ağ rəngə boyanmış forma və detallar binaya xüsusi yaraşıq verir.



Azərbaycan Dövlət Akademik Filarmoniyası

**YARADICI TAPŞIRIQ** Quaş, flomasterlər, pastel təbaşirlər, ağ, rəngli kağızlar və karton, müxtəlif kağız və ya plasmas qutular, PVA yapışqanı

**Yeni memarlıq nümunəsi fikirləşin və yaradın.**

Yaradacağınız tikilinin formasının düzəldilməsində müxtəlif materiallardan istifadə etmək olar. Yaratdığınız tikilini naxışlarla bəzəyin.



- **Yaşadığınız ərazidə hansı memarlıq abidələri var?**
- **Memarlıq abidələrində hansı formalar müşahidə olunur?**

LAYİHƏ

# 22 Rəssam və teatr

Kim teatrda olubsa, zalın işıqları sönərkən onu bürüyən sirli, möcüzəli hissi, yəqin ki, xatırlayır. Qaranlıq zalda işıq şüası ilə müşayiət olunan səhnə pərdəsi açılır və tamaşanın qəhrəmanları peyda olurlar. Səhnədə tamamilə yeni, qeyri-adi "həyat" başlayır. Orada baş verənlər həm doğru, həm də uydurmadır. Ona görə ki, teatr – fantaziya, oyun aləmidir və möcüzə dolu bir dünyadır.





Koroğlu

**Tanış olun**

T. Salahov. "Koroğlu" operası üçün hazırlanmış eskizlər



"Həsən xanın sarayı" (dekorasiyanın eskizi)



Saray keşikçiləri (xarakter və libasların eskizi)



Koroğlunun silahdaşları (xarakter və libasların eskizi)

Tamaşa qəhrəmanlarının geyimi, onları əhatə edən səhnə elementləri **dekorasiyalardır**. Onların bu qədər canlı görünməsində rəssamın da əməyi var. O, dekorasiyaları fikirləşir, aktyorun geyinəcəyi kostyumun eskizini çəkir. Dekorasiyanı böyük ölçüdə hazırlamaq üçün, əvvəlcə onun kiçik ölçüdə ilk görüntülərini çəkir, yapışdırır, yapır. Yəni teatrın kiçikölçülü **maketini** hazırlayır.

Möcüzələr ölkəsində uşaqlar da yaddan çıxmayıb. Kukla teatrı adlanan bu ölkənin aktyorları kuklalardır. Onlar da gəzməyi, danışmağı, gülməyi və ağlamağı bacarırlar.

**Yadda saxlayın**

- **Maket** — fransız sözüdür, əvvəlcədən düzəldilmiş ilkin nümunədir.

LAYİHƏ

Səhnədə kukla iplərin, çubuqların və ya əllərin köməyi ilə hərəkət edir. İplərin köməyi ilə canlanan kukla **marionetka,** ələ geyilən kuklalar isə **əlcək kukla** adlanır.

**Tanış olun**





*Parçadan hazırlanmış kuklada barmaqların vəziyyəti*



Əlcək kuklalar

Marionetka

Kukla yaratmaq üçün rəssam onun üzərində uzun müddət işləyir. Əvvəlcə, yaradılacaq kuklanın kağız üzərində rəsmi çəkilir: hərəkət tərzi, xarakteri, necə danışacağı təsəvvür edilir. Sonra isə o, parçadan və ya taxtadan hazırlanaraq bəzədilir.

Bu peşə çox sirlidir... Kukla rəssamı ən sadə materialları — kağızı, əsgini, düyməni, lələyi məharətlə təmtəraqlı geyimə çevirə bilir.

## Sənətkar məsləhəti

Kuklaların obrazı və materialı müxtəlif olsa da, onları "canlandırmaq" üsulları eynidir.

Kağız paketdən hazırlanmış personaj



Kağız və iplərdən hazırlanmış personaj





*Əl üzərində qrimlə çəkilmiş obrazlar*

**YARADICI TAPŞIRIQ** Quaş, flomasterlər, rəngli kağız, karton, PVA yapışqanı

**Teatr geyiminin eskizini yaradın. Bu, nağıl və ya sevdiyiniz qəhrəmanın geyimi də ola bilər.**

- **Dekorasiya nədir?**



*Nümunələr*



LAYİHƏ

# 23 Küçələrimizin bəzəyi — fənərlər

Qaranlıq düşərkən şəhərimizi fənərlər işıqlandırır. Onlar, sadiq keşikçilər kimi şəhərin küçə və meydanlarını qaranlıqdan qoruyur. Gündüz, şəhər oyananda onlar dincəlir, axşamlar yenidən işə başlayırlar.

Fənərləri seyr edin. Onların hər birinin öz forması, bəzəkli "geyimi" var. Təəccüblü deyil, çünki onları da yaradan və bəzəyən rəssamdır.





Fənərlərdən biri zınqırova, digəri damcıya oxşayır. Sırada üçüncü olan, samovara oxşayan fənər öz oturacağında təmkinlə dayanıb.











Soyuq parıltılı fənərlər isə qaranlıq gecədə şəhərdə lövbər salmış əfsanəvi gəminin fənərlərinə çox oxşayır.



LAYİHƏ

Hər fənərin öz obrazı var. Bunu fənərin təbiətdə olan formalara — güllərə, ulduza, insana, fiqurlara bənzərliyindən müəyyən etmək olar.

Fənərləri forma və quruluşuna görə divardan da asmaq olar. Onlar yolların, körpülərin, park və meydanların bəzəyidir. Fənər hər tərəfə işıq saçan sənət əsəridir.













**YARADICI TAPŞIRIQ** Rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər

**Yeni fənər formaları düşünün və çəkin. Onların forma və quruluşuna diqqət yetirin.**

- **Fənərlərin forma və quruluşu haqqında nə demək olar?**

LAYİHƏ

# 24 Küçədəki heykəllər

İnsan və heyvanların ağacdan, gildən, gipsdən, daşdan, metaldan olan həcmli təsviri **heykəl** adlanır. Heykəl adətən **pyedestal,** yəni hündür və bəzədilmiş özül üzərində dayanır. Şəklin çərçivəsi kimi, pyedestal heykəli ətrafdan seçdirir. Tarixi şəxsiyyətlərə və hadisələrə həsr olunan heykəlləri **abidə** də adlandırırlar.

Abidə — **monumental heykəltəraşlıq** əsərlərinə aiddir. Heykəl-abidə möhkəm və ağır materiallardan — mərmər, qranit və xüsusi metal qarışığı olan tuncdan hazırlanır.




Dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi. Bu heykəlin müəllifi Azərbaycanın Xalq rəssamı, heykəltəraş Fuad Əbdürrəhmanovdur.

**Yadda saxlayın**

- **Monumental** — latın sözüdür, əzəmətli, möhtəşəm deməkdir. Heykələ hər tərəfdən baxmaq lazımdır, hətta o, balaca olsa belə.
- **Abidə** — ərəb sözüdür, tarixi şəxsə xatirə olaraq ucaldılan heykəl.
- **Pyedestal** — fransız sözüdür, üzərində heykəl, sütün dikəldilən altlıq və ya özül.

LAYİHƏ



**Tokay Məmmədov**

Küçələrimizi bəzəyi sayılan İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Üzeyir Hacıbəylinin və başqa tarixi şəxsiyyətlərin heykəlləri Azərbaycanın Xalq rəssamı Tokay Məmmədova aiddir. Onun yaratdığı əsərlər Azərbaycan heykəltəraşlıq sənətinin əvəzedilməz nümunələridir.



İmadəddin Nəsiminin heykəli. Bakı, 1980

*Heykəltəraşlar:*
Tokay Məmmədov
İbrahim Zeynalov



Məhəmməd Füzulinin heykəli. Bakı, 1958-1963

*Heykəltəraşlar:*
Tokay Məmmədov
Ömər Eldarov

**YARADICI TAPŞIRIQ** Plastilin və ya gil

**İstədiyiniz heykəli düzəldin və pyedestalın üzərində yerləşdirin. Verilmiş nümunələrdən istifadə edə bilərsiniz.**

## Sənətkar məsləhəti

Pyedestal nümunələrinə baxın. Onlardan birini düzəldin.





- **Heykəltəraşlıq qrafika və rəngkarlıqdan nə ilə fərqlənir?**
- **Küçədəki və parkdakı heykəllərin fərqi nədədir?**



LAYİHƏ

# 25 Park, bağ, bulvar

Şəhəri park, bağ və bulvarsız təsəvvür etmək mümkün deyil. Onlar şəhərdə yaşıl adalara bənzəyir. Bulvar və parkda meşədəki kimi, yamyaşıl otlar bitir, ağaclar boy atır, quşlar oxuyur.

Lakin bura təbiətdən fərqlidir. Parkda qızılı qum səpilmiş cığırlar, qollu-budaqlı ağaclar, yaşıl ot və əlvan çiçəklərlə naxışlanmış qazon və ləklər var. Orada şar, piramida və qeyri-adi görünən digər formalarda qayçılanmış dekorativ kollar, fəvvarə və heykəllər görə bilərsəniz.





Dekorativ formada qayçılanmış kol və ağaclar



Fəvvarələr bağı (fraqment)

İnsan burada təbiəti öz məqsədinə uyğun dəyişdirir, onu istədiyi formaya salır. Hər hansı bir park yaradılanda ilk növbədə ondan necə istifadə olunacağı haqqında düşünülür.

Şəhərimizin ən böyük parkı – Dənizkənarı bulvardır. Burada insanlar dincəlir, uşaqların əylənməsi üçün müxtəlif attraksionlar fəaliyyət göstərir.

LAYİHƏ



Dənizkənarı bulvar (fraqment)

Uşaqlar üçün yaradılan park isə tamamilə başqadır. Orada həmişə sevinc və şənlik əhvali-ruhiyyəsi var. Dostlarınızın çəkdiyi təsvirlərə baxarkən siz bunu duyacaqsınız.

**YARADICI TAPŞIRIQ** Quaş, pastel təbaşirlər

**Təsəvvür etdiyiniz parkın rəsmini çəkin.** Bu, nağıl qəhrəmanlarının parkı, zoopark və ya uşaqlar üçün şən, əyləncəli park da ola bilər. Rəsmin daha da maraqlı olması üçün park elementlərini çəkməyi də unutmayın.





Şagird rəsmləri. Əyləncə parkı (quaş)

- **Park, bağ və bulvarın əhəmiyyəti nədir?**
- **Parklarda ağac və kollara nə üçün müxtəlif formalar verirlər?**

LAYİHƏ

# 26 Muzeylər

Bütün dövrlərdə sənətkarlar nadir incəsənət əsərləri yaratmışlar. Bu əsərlərin ən yaxşıları muzeydə saxlanılır. **Muzey**lər müxtəlif olur. Ölkəmizdə sayca ən çox olan diyarşünaslıq muzeyləridir. Orada bizim dövrə qədər insanların necə yaşadığını görə və öyrənə bilərsiniz.

Digər muzeylər də var: oyuncaq muzeyi, qab-qacaq muzeyi, kəlağayı muzeyi, xalça muzeyi, hətta fənər muzeyi.

Ölkəmizin məşhur muzeylərindən biri Azərbaycan Dövlət İncəsənət Muzeyidir. Burada sənət əsərləri — xalça, zərgərlik və keramika məmulatları, xalq tikmələri, milli geyimlər və başqa **eksponatlar** saxlanılır.



Azərbaycan Dövlət İncəsənət Muzeyi

Muzeyə daxil olarkən, sanki möcüzələr aləminə düşürsünüz. Orada ölkəmizin və dünyanın tanınmış rəssam və heykəltəraşlarının yaradıcılığı ilə tanış olursunuz.

Muzeylərdə sənət əsərləri nümayiş olunur, öyrənilir, bərpa edilir və qorunur.

Muzey zallarında müxtəlif **ekspozisiyaların** tərtibatı ilə rəssamlar məşğul olurlar. Zallarda hər zaman sakitlik hökm sürür.



Ekspozisiya (fraqment)

LAYİHƏ

Divarlarda asılan, qızılı naxışlarla işlənmiş çərçivələrdəki irili-xırdalı rəsm əsərlərinin hər birində rəssam yaratdığı təkrarsız obrazlarla öz düşüncələrini ifadə edir.

Zaldan zala keçərkən insanlar çox astadan danışır, öz təəssüratlarını bölüşürlər. Seyr etdikləri əsərlərdə sənətkarların yaradıcılığına münasibət bildirir, kompozisiyanı, koloriti, onun əhvali-ruhiyyəsini də müzakirə edirlər.




Muzey zalları (fraqmentlər)

**Yadda saxlayın**

- **Muzey** — yunan dilində "muza", incəsənət və elm ilahəsi deməkdir. Tarixi, maddi və mənəvi dəyərlərin saxlandığı, qorunduğu, öyrənildiyi yerdir.
- **Eksponat** — muzeydə nümayiş etdirilən məmulat.
- **Ekspozisiya** — eksponatları nümayiş etdirmək üçün onların müəyyən qaydada düzülüşünə deyilir.

Muzeyi ziyarət edənlər insanın yaratdığı ən gözəl nümunələri seyr edir, yeni və maraqlı məlumatlarla tanış olur, daxilən zənginləşirlər.

Buraya gələn hər bir insan incəsənət dünyası ilə tanışlıqdan məmnun halda, xoş təəssüratlarla ayrılır.

Sizin də, yəqin ki, evdə balaca muzeyiniz vardır — açıqcalar, balaca maşınlar, gəlinciklər, əsgərlər və oyuncaq heyvanlar. Xüsusi guşə ayırıb onları rəflərə cərgə ilə düzsəniz dostlarınız daha rahat seyr edə bilər. Beləcə, öz kiçik muzeyinizi düzəltmiş olarsınız.

YARADICI TAPŞIRIQ

**Muzeylər haqqında əlavə məlumat toplayın.**

- **Hansı Azərbaycan və dünya muzeylərini tanıyırsınız?**
- **Muzey necə yaranır? Muzeyin yaradılmasında məqsəd nədir?**

LAYİHƏ

## ÖZÜNÜZÜ YOXLAYIN

**1. Memarlıq incilərinin adını söyləyin. Onlar haqqında bildiklərinizi danışın.**





**2. Fənərlərin forması haqqında danışın.**





**3. Monumental heykəltəraşlıq nümunələri haqqında bildiklərinizi şərh edin.**

Heykəl

Abidə

**4. Park, bağ və bulvar arasında fərq nədir?**





**5. Eksponat və ekspozisiyanın fərqini izah edin.**




LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**TƏSVİRİ İNCƏSƏNƏT**
*Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün*
*Təsviri incəsənət fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər **Kəmalə Əhməd qızı Cəfərzadə**
**Yeganə Qələndər qızı Cəlilova**

Redaktorlar **Kəmalə Cəfərli, Kəmalə Abbasova**
Bədii redaktor **Taleh Məlikov**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Rəssamlar **Məzahir Hüseynov, Elmir Məmmədov**
Korrektor **Aqşin Məsimov**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 6,8. Fiziki həcmi: 8 çap vərəqi.
Formatı: 57×82$^{1}/_{8}$. Səhifə sayı: 64.
Şriftin adı və ölçüsü: Arial qarnituru 12-16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tiraj 0. Pulsuz. Bakı – 2022.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 19.07.2018**

Nəşriyyat:
**“Bakı” nəşriyyatı** (Bakı, H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:

LAYİHƏ

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ